# Sonuncu sərnişin

*Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yaradıcılıq Fondu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə ümmumilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunan "Quran motivləri əsasında hekayələr" müsabiqəsində "Ədalət" qəzetinin müxbiri, şairə-tərcüməçi, yazar Şəfiqə Şəfanın "Sonuncu sərnişin" hekayəsi ölkənin üç nüfuzlu qurumunun (Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, "525-ci qəzet" və Qafqaz Universiteti) mükafatına layiq görülüb.*

*Adalet.az "Sonuncu sərnişin" hekayəsini təqdim edir:*

***

Avtobusun nəfəsdən tərləmiş şüşəsindən dumanlı fonda görünən qəsəbə işıqlarını seyr etməkdən yorulub oturacağa yayxandım. Evə çatmağıma hələ çox vardı. Adəti üzrə çatanadək bir az mürgüləmək üçün başımı söykənəcəkdə rahatladım. Paytaxtın mərkəzində yerləşən iş yerimə vaxtında yetişmək üçün hər gün ertədən oyanmaq məni lap əldən salmışdı. Gün ərzində nə qədər işlə məşğul olsam da yuxudan doymadan günə başladığımdan məndə daimi halsızlıq yaranmışdı. Səbirsizliklə gözlədiyim həftə sonlarında doyunca yatıb dincəlmək arzusu son zamanlar hətta digər taleyüklü arzularımı belə üstələyirdi. Ara günlərdə isə iş-ev arası yolun uzaqlığından istifadə edib gözümün acısını beləcə avtobuslarda alırdım. Xoşbəxtlikdən yaşadığım ev sonuncu dayanacaqda yerləşdiyindən yatıb avtobusda qalmaq təhlükəsi də yox idi. Həm də gündəlik yol yoldaşı olduğum sürücülər artıq tanıdığından son dayanacaqda səslənərək məni oyadırdılar. Aralarında cavan olanları mənə nəzakət jesti edərək avtobusu hətta məhəllənin içinə qədər sürürdülər. Yaşlılar isə faraları bir müddət yanılı qoyaraq mənim evə aydınlıqda çatmağıma yardımçı olurdular. Hmm sonuncu sərnişin olmağın da üstünlükləri varmış

Gözümü təzəcə yummuşdum ki, qəfil cingiltili səsdən diksinib ayıldım. Yuxulu olduğumdan əvvəlcə nə baş verdiyini anlamasam da ağlamsınan qadın səsi məni yavaş-yavaş özümə gətirdi. Təxminən yetmişə yaxın yaşı olan qadın dizlərinə döyə-döyə gileylənirdi:

- Vaxsey, mən indi neyləyəcəm, axı burdan Hökməliyə necə qayıdacam?! Mən heç yolu da düz-əməlli tanımıram. Deyirəm axı, mənlə gələn bu arvadlar hara yoxa çıxıblar. Ay bala, biriniz mənə kömək edin, bu gecə vaxtı azıb qalmayım

Demə yaşlı qadın Hökməli qəsəbəsi əvəzinə Biləcəriyə gedən avtobusa minibmiş. Eyni biçimdə, eyni rəngdə olan avtobuslar onu çaşdırıbmış. Üstəlik hər iki qəsəbəyə gedən avtobuslar ardbaard dayandığından onunla gələn iki qadının arxa qapıdan mindiyini zənn edərək özü də bu avtobusa minib. Ağzına kimi adamla dolu olan avtobusda yalnız sərnişinlər seyrəldikcə rəfiqələrini görməyən qadın yanlış yol gəldiyinin fərqinə varır. İndi isə yazıq qadın nə edəcəyini bilməyərək sərnişinlərdən onu yola salmağı xahiş edirdi. Adamlar isə sanki heykəl kimi elə dayandıqları yerlərində quruyub susqun, sadəcə təəssüf dolu baxışlarla onu süzürdülər. Yalnız sürücü kömək məqsədilə yolun o biri tərəfinə keçib geriyə - metronun "Memar Əcəmi" stansiyasına qayıtmağı məsləhət bildi:

- Burdan Hökməliyə heç nə getmir. Nə qədər ki, avtobuslar yığışılmayıb dediyim kimi elə!

Başqa kömək görməyən çarəsiz qadın özünü danlayadanlaya avtobusdan endi. Səkinin kənarında üzünü ovuclarına alıb ona bəlkə də dünyanın o başı kimi görünən Hökməliyə necə gedəcəyini götür-qoy edərək ətrafa boylandı. Bütün qəlbimlə ona kömək etmək istəsəm də, bu qaranlıq və soyuqda özümün də təhlükəyə düşə biləcəyim qorxusu məni saxladı. Sürətini artıran avtobusun pəncərəsindən qara nöqtə olanadək yaşlı qadından gözümü çəkə bilmədim. O, hələ də yerindən tərpənməmişdi İçimdə qəribə gərginlik və narahatlıq baş qaldırdı. Görəsən o, evinə necə qayıdacaq?! Qayıda biləcəkmi Bəlkə heç pulu da yoxdu Birdən başına bir iş gəldi?!

Yol boyu bu cavabsız sualları və içimdə baş qaldırmış narahatlığı "İnşallah bir şey olmaz, Allah kərimdi" fikirləri ilə yatırmağa çalışsam da həmişəoyaq vicdanımı susdura bilmirdim.

- Nə yaxşı bu dəfə yatmamısız? - deyə üzümə irişən sürücünün kal səsi məni fikirlərdən ayırdı. Sonuncu dayanacağa çatmışdıq Sürücüyə pulu uzadıb sərsəm addımlarla enərkən:

- Pulun qalığını götürün, ay xanım, - deyə arxamca səsləndi. Fikirlər arasında tamam özümü itirmişdim. Həmişəki kimi mənə görə gec söndürülən faraların işığı altında, çınqıl döşənmiş yolla iti addımlarla (yeni salınmış yaşayış massivində hələ sakinlər azlıq təşkil etdiyindən hava qaralanda itpişikdən və məndən başqa bayırda ins-cins olmurdu. Sanki bu ərazilərdə məndən savayı işləyən və ya Bakıya yolu düşən yoxdu. Ona görə də tənha küçələrdən tez canımı qurtarmaq məqsədilə həmişə yeyin yeriyirəm) evin yolunu tutdum.

Adəti üzrə qapıdan içəri girən kimi "Şükür, bu günü də sağ-salamat başa vurdum" deyərək Tanrıya təşəkkür etdim, amma bayaqdan bəri beynimi gəmirən fikir qurdu bunun əksini - günün hələ bitmədiyini deyirdi. Az öncə rastlaşdığım hadisədən sonra bu gecəni çətin ki sabah edə bilərdim.



Ürəyimdə "kaş, kişi olardım, onda gecələr azıb qalmış və ya kimsəsiz insanları heç vaxt köməksiz qoymazdım" deyə keçirdim. Çünki mərdi namərdlə qarışmış, əxlaqsızlığı çoxalmış, məzhəbi itmiş bu dünyada qadın olaraq təkbaşına, qaranlıqda küçədə gəzmək üçün ya ruhi xəstə, ya da gecəni özünə yoldaş seçmiş yüngül əxlaqlı olmalısan. Əks halda kömək edənlərdən yox, kömək umanlardan ola bilərsən!

Fikirli halda hamam otağına girib əl-üzümü yudum. Adətən, rahat ev paltarımı geyib sonra yuyunuram. Bu dəfə isə hansısa bir hiss mənə tələsməməyi tövsiyə edirdi. Ürəyimlə ağlımın qızğın mübarizəsi gedirdi. Ürəyim bütün təhlükələrə rəğmən geri qayıdaraq yaşlı qadını tapıb ona yardım etməyi, ağlım isə əksini - öz qayğıma qalmağı tələb edirdi. Həyatımda bir neçə dəfə belə mübarizələri yaşamalı olmuşam. Çox vaxt seçimi ürəyə verərək yanıldığım məqamlar da olub. Amma bu dəfə söhbət sırf məndən yox, köməyə ehtiyacı olan başqa bir insandan gedirdi. Axı mənim də yaşlı anam var! Bir gün o da belə bir vəziyyətə düşsə Heç kəs başına gələcəklərdən sığortalanmayıb. Yox artıq düşüncələr yerini əmələ verməliydi. Mübarizənin nəticəsi özünü gizlətmədi. Bu qarşıdurmadan qalib çıxan ürək məni insanlıq naminə xeyirxahlığa səsləyirdi.

Bəlkə də, başqa vaxt olsaydı soyuq payız gecəsində, səssiz küçələrdə yalqız yol getməyin nəinki özü, hətta düşüncəsi belə məni ürpədərdi. Ümumiyyətlə, qaş qaralandan sonra bayırda olmağı heç sevmirəm. Hətta yanımda kişi xeylağı olsa belə gecə vaxtı evdən kənarda olanda hər hansı xoşagəlməz bir hadisənin baş verəcəyindən qorxur, evə tələsirəm. Gecələr ətraf mənə vahiməli, insanlar isə qorxunc və dəhşətli məxluqlar kimi görünürlər. Yox, psixoloji vəziyyətim qaydasındadı, sadəcə müşahidə etdiklərim və eşitdiklərim göstərir ki, bəzən gündüzlər tamamilə normal adam təsiri bağışlayan insanlar gecələr sanki heç kimin (hətta Allahın da!) onun törədəcəklərindən xəbəri olmayacaqmış kimi manyaklaşırlar. Təsadüfi deyil ki, gecəni "bütün cinayətlərin və xəyanətlərin baş verdiyi an" adlandırırlar. Amma bu dəfə Tanrı və Vicdanın üzərimə qoyduğu missiya məni elə cəsarətləndirmişdi ki, iti və əmin addımlarla bütün təhlükələrə sinə gərəcək bir əzmlə məqsədə doğru addımlayırdım (bəzən düşünürəm ki, Vicdan Allahın adlarından biridir. Yaradan bu dünyada insanları sınağa çəkmək istəyəndə onları Vicdanın hökmünə verir. Vicdan məhkəməsindən üzüağ çıxanlar, Allahın haqq məhkəməsində də alnıaçıq olacaqlar).

Tanış avtobus sürücüsünün sual dolu baxışlarına məhəl qoymadan ön sıralardan birində əyləşdim. Təxminən 4-5 dəqiqədən sonra yola çıxan avtobusun pəncərəsindən itiyi itmiş adam kimi dördgözlə ətrafa baxırdım. Yaşlı qadının düşdüyü yer yadımdaydı, amma düşünürdüm ki, azaraq bu tərəflərə də gələ bilər. Bəlkə də, hər şey qaydasında idi. Qadın artıq Hökmələdə - evindəydi. Kaş elə də olardı. Ancaq nədənsə onun hələ də küçələrdə çarəsiz qaldığına əminiydim. Ümumiyyətlə, məndə baş verəcək bütün xoşagəlməz və ya bədbəxt hadisələri qabaqcadan duyacaq heyvani bir hissiyat var. Zəlzələdən və digər təbii fəlakətlərdən öncə bəzi dördayaqlılar arasına çaxnaşma düşdüyü kimi, mən də bədbəxt hadisələrdən öncə narahatlıq sancısıyla qovrulur, o tərəf bu tərəfə var-gəl edir, gərginlik keçirirəm. Bu dəfə də həmin hiss və narahatlığın məni qətiyyən tərk etmədiyinə görə anlayırdım ki, müdaxilə olunmasa bir insan həyatı təhlükəyə, bəlkə də məhvə uğraya bilər.

Qadının təxminən bir saat öncə düşdüyü yerə çatanda özümü avtobusdan demək olar ki, bayıra atdım. Küçədə yol kənarında yerləşən kafenin qarşısında dayanmış bir neçə kişidən və 10-15 metr aralıda səkiylə gedən cütlükdən başqa heç kim yox idi. Bəlkə də, payızın sümüyü sızıldadan soyuğu "gecəquşu"ları öz yuvalarına dürtmüşdü. Yenə də ətrafa göz gəzdirib diqqətlə hər tərəfi nəzərdən keçirdim. Axtardığım yox idi Axı hardan bilim, necə dəqiqləşdirim ki, o gedib, buralarda deyil?!.. Axı mən niyə vaxtında ona kömək etmədim?! Başqa yol yox idi, kişilərə yaxınlaşdım. Sanki qurbağa gölünə daş atılmış kimi bayaqdan uca səslə danışan, arabir nalayiq sözlərdən də qalmayan bu adamlar onlara tərəf gələn qadını (həm də gənc və gözəgəlimli!) görcək bir anlıq duruxdular. Onlara yaxınlaşıb:

-Axşamınız xeyir, buralarda yaşlı bir qadın görməmisiz? - çəkinə-çəkinə soruşdum.

Əvvəlcə məni başdan-ayağa süzən mırıqdiş, bığlı kişi burnunu çəkib:

-Yox, biz bura təzə gəlmişik. Biz gələndə heç kəs yox idi, - deyə təəccüblə çiynini çəkdi.

-Nə olub ki, qəşəng xanım, bəlkə biz kömək edə bildik? - aralarında nisbətən cavan olanı "kömək" sözünü xüsusi eyhamla deyərək, hətta bu sözü vurğulamaq üçün qaşlarını da oynatdı. Üzümü onlardan çevirərək yenidən yola boylanıb:

-Anam burda məni gözləyəcəkdi Onu axtarıram.

-Axtarmaq lazımdısa, biz hazır !

- Narahat olmayın yoldaşım gəlir, yoldadı, özümüz axtararıq, - bu dəfə mən "yoldaşım" sözünü xüsusi eyhamla dedim. Elə bu da kifayət etdi. Arxalarını çevirib söhbətlərinə davam etdilər. Bu millətin bir nümayəndəsi olaraq bütün xırdalıqlardan və çatışmazlıqlardan xəbərdaram. Qadın istəyirsə küçədə çılpaq gəzsin, min oyundan çıxsın, əgər böyründə "ər" adlanan kişi varsa, heç kəsin onunla işi olmayacaq. Əksinə, nə qədər əxlaqlı, başıaşağı qadın olmağına baxmayaraq ərdə deyilsə, qara gününü qablaşdırsın! Şəxsi təcrübəmdən bilirəm, haqqında deyilməyən söz, baxılmayan əyri göz qalmayacaq

**(Ardı növbəti sayımızda)**